# "Kitabi-Dədə Qorqud"da mənəvi-əxlaqi problemlər

**Fidan Abdurəhmanova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
**E-mail:** fidan_abdurahmanova@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., akad. M.K. İmanov,
filol.ü.e.d., prof. Ş.N. Alışanlı

**Açar sözlər:** epos, qəhrəmanlıq, mənəvi tərbiyə, tarix, mədəniyyət, ədəbiyyat
**Ключевые слова:** эпос, геройство, духовное воспитание, история, культура, литература
**Key words:** epos, heroism, spiritual upbringing, history, culture, literature

Türk epos mədəniyyətinin şah əsəri olan Kitabi-Dədə Qorqud qədim oğuzların tarixini, mədəniyyətini, qəhrəmanlığını, etnologiyasını sevgisini və zəngin məişətini əks etdirir. Bu monumental epos, ənənəvi qəhrəmanlıq və məhəbbət dastanları bölgüsünə sığmır. Bir müqəddimə və on iki dastandan ibarət olan bu epos, öz bədii fəlsəfi siqlətinə leksik-semantik zənginliyinə görə çox mürəkkəb və heyrətamiz struktura malikdir. 1988-ci ildə eposun mükəmməl nəşrini hazırlayan, görkəmli türkoloqlar Fərhad Zeynalov və Samət Əlizadə kitaba yazdıqları "Tükənməz xəzinə" adlı mənalı ön sözdə eposun ümumi bədii fəlsəfi və tarixi linqvistik əhəmiyyətini qeyd edərək yazmışlar: "Kitabi-Dədə Qorqud çiçəkləri solmaq bilməyən, əbədi təzə-tər qalan, zaman-zaman nəsilləri heyran qoyan bir sənət gülşənidir. Bu "kitab"ı cəsarətlə Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası adlandırmaq olar. Qədim ədəbiyyatımızın təlqin etdiyi müdrik, mənalı fikirlər, zərif bəşəri duyğular, öz başlanğıcını böyük "Kitabi-Dədə Qorqud"dan götürür oğuz dastanlarındakı maraqlı və rəngarəng süjetlər, canlı həyat müşahidəsindən doğan motivlər, şeir və nəsr parçalarının əlaqəli, harmonik düzümü onlarca parlaq və orijinal linqvopoek vasitələr nağıl və dastanlarımıza təsir göstərmişdir. "Kitabi-Dədə Qorqud" lokanik olduğu qədər də monumentaldır; artıq sözdən, xaric səsdən uzaq, öz qurğuşun silqəti ilə torpağın dərinliyinə işləyən, öz dadı duzu, şirinliyi ilə əcdadımızın zəngin idrak və təxəyyülünün məhsuku olan möhtəşəm bir abidədir" [1, 5].

Bu konseptual fikirdə eposun bütün struktural mahiyyəti, tarixi fəlsəfi problematikası öz əksini tapır. "Kitabi-Dədə Qorqud" eposunun əsas ideyası türk tayfalarını vahid xalq və dövlət kimi birləşdirməkdən ibarətdir. Eposa daxil olan bütün dastanlarda qəhrəmanlıq sadəcə döyüşkənlik müharibələr aparmaq qələbələr qazanmaq mənasından daha genişdir. Burada türkün qəhrəmanlığı yüksək mənəviyyata və əxlaqa əsaslanır: türkün qəhrəmanlığı onun gücündə yox ruhundadır. Ona görə də dastanın mənəvi didaktik konsepsiyasında yüksək torpaq və vətən sevgisi dayanır. Bu da öz başlanğıcını eposda bütün mənəvi xətləri özündə birləşdirən ata kultunda ifadə olunur.

"Kitabi-Dədə Qorqud"un hər boyu el-obaya, ata-anaya,bacı-qardaşa ülvi məhəbbətin canlı salnaməsidir; mərdlik və qəhrəmanlığa yer üzündə səadət və bəxtiyarlığa qüdrətli himndir" [2, 6].

Eposda mənəvi tərbiyə hər şeydən öncə ata kultu ilə bağlıdır. Dastanın müqəddəməsində deyilir:

Qız anadan görməyincə öyüd almaz
Oğul atadan görməyincə süfrə çəkməz
Oğul atanın yetirməsi, iki gözünün biridir.
Ağıllı oğul olsa ocağının gözüdür.

Oğul daha neyləsin, ata ölüb mal qalmasa
Ata malından nə fayda başda ağıl olmasa...
Ağılsız adamın şərindən  Allah saxlasın xanım, sizi!

Tədqiqatlardan məlumdur ki, Dədə Qorqud dastanındakı hadisələr VII-IX əsrlərdə cərəyan etmişdir. Misal gətirdiyimiz "müqəddəmə"nin birinci cümləsi belədir: "Məhəmməd Peyğəmbərin zamanına yaxın Bayat boyunda Qorqud ata deyilən bir kişi vardı. O kişi oğuzların kamil bilicisi idi: nə deyirdisə, olurdu" Bu qeyd əsasında da xalqımız eposun 1300 illik yubileyini qeyd etdi. Belə məlum olur ki, yuxarıda valideyn kultunun önəmliliyi ilə mənəvi tərbiyə ilə əlaqədar verdiyimiz misallar müqəddəs kitabımız Quranda özünə yer almış "Cənnət anaların ayaqları altındadı" kəlamı ilə eyni vaxtda meydana gəlib. Təsadüfi deyil ki, dastanın "Dirsə xan oğlu Buğac xan boyu" boyunda düşmən oxu ilə yaralanmış Buğaca Xızır peyğəmbərin yuxuda dediyi dərman xilas edir. Yaralı Buğac anasına deyir: "Ana, ağlama; qorxma, bu yaradan mənə ölüm yoxdur. Boz atlı Xızır yanıma gəldi, üç dəfə yaramı sığadı. "Bu yaradan sənə ölüm yoxdur. Dağ çiçəyi ilə anan südü sənə dərmandır" dedi" [4, 137]. Bu boyda ana südü sağalmaz dərdlərin dərmanı həyat cövhəri kimi vəsf olunur.

Dastanın əsas boylarından olan "Salur Qazanın evinin yağmalandığı boy" belə bir mənəvi əxlaqi sonluqla bitir:

Ağ saqqalı atan yeri cənnət olsun!
Ağ birçəkli anan yeri behişt olsun!
Son gündə təmiz imandan ayırmasın!
Son gündə təmiz imandan ayırmasın!
"Amin" deyənlərin üzünü görsün!
Ağ alnımızı yerə qoyub, beş kəlmə də dua qıldıq.
qəbul olunsun.
Allah verən ümidin üzülməsin! [5, 170]

Bu misralarda qədim türk mənəviyyatının məxəzi kimi artıq tanrıçılıq deyil, islam dininin yeni türk mühitinə daxil olunmuş əlamətləri görünməkdədir. bunu həm də əxlaqda inamın və imanın birləşməsi kimi qəbul etmək olar.

Eposun "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy" boyunda əsir düşmüş nigaran ananın Qazana məğrur ananın müraciəti mənəvi tərbiyə baxımından olduqca ibrətlidir. "Xan qızı Boyu uzun Burla Xatun Qazan xanın gəldiyini eşitdi. Samur cübbəsini əyninə geydi. Qazanın qarşısına gəlib, üz örtüyünü qaldırdı. Qazanın üzünə sarı baxdı. Sağ-soluna göz gəzdirdi. Oğlu Uruzu görmədi. Qara bağrı sarsıldı, ürəyi yerindən oynadı, qara qıyılmış gözləri qan-yaşla doldu. Qazana söyləmiş, görək, xanım nə söyləmiş, dedi:

Oğul, oğul ay oğul! Evimin dirəyi oğul!
Qarşı yatan qara dağın yüksəyi oğul!
Qurumuşca sinəmdə südüm oynayır.
Yalqızca oğul görünmür, bağrım yanır.
Yalnız oğul xəbərini, Qazan, söylə mənə!
Deməzsənsə yana-yana qarğayaram, Qazan, sənə!

"Dədə Dorqud"da gənclər təkcə qəhrəman deyil, həm də yüksək mənəviyyat adamlarıdır: ata kultuna ehtiram bəsləyən, vətənə etibarlı ailəyə sədaqətli igidlərdir. "Baybörənin oğlu Bamsı Beyrək boy"unda belə bir ibrətli epizod var. Əsir düşmüş yaralı Beyrəyi xilas etmək

üçün gələn gözəl kafir qızını rədd edir. Sevgilisi Banuçiçəyə tükənməz sədaqətini nümayiş etdirir. Bu epizod sübut edir ki, qədim oğuzlarda ailə əxlaqı və ailə kultu olduqca möhkəm idi.

Aklad. N. Cəfərov yazır: "Epos", sadəcə, dastan deyil, müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə ifadə edən möh-təşəm dastan – potensiyasıdır. Onu tam halında bərpa et-mək mümkün deyildir, mövcud mənbələr əsasında yalnız təsəvvür etmək mümkündür ki, həmin təsəvvür ideya-estetik, poetexnoloji, linqvistik və s. komponentlərin üzvi vəhdətindən ibarətdir.

"Dədə Qorqud" igidləri öz həyat tərzlərində qəhrəmanlıqla sevgini bir ideal olaraq birləşdirmişdilər.

**Məqalənin aktuallığı.** Dastanın mənəvi didaktik konsepsiyasında yüksək torpaq və vətən sevgisi dayanır. Bu da öz başlanğıcını eposda bütün mənəvi xətləri özündə birləşdirən ata kultunda ifadə olunur.

**Məqalənin elmi yeniliyi.** Bu konseptual fikirdə eposun bütün struktural mahiyyəti, tarixi fəlsəfi problematikası öz əksini tapır. "Kitabi-Dədə Qorqud" eposunun əsas ideyası türk tayfalarını vahid xalq və dövlət kimi birləşdirməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, bakalavr və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat


1. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
2. Əlizadə S. Tarixin yenilməz kitabı. Ön söz: "Kitabi-Dədə Qorqud". Bakı, 1999.
3. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988 ("Dirsə xan oğlu Buğac xan boyu").
4. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988 ("Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy").


**Ф. Абдурахманова**

## Морально-этические проблемы в Деде Горгуде
## Резюме

Шедевр турецкой эпической культуры история древних Огузов, культура любовь к этнологии и отражает богатую жизнь. Это монументальный эпос традиционный героизм и любовные эпосы не вписывается в разделение. Введение состоит из двенадцати эпосов этот эпос, сложное философское осмысление имеет поразительную структуру.

**F. Abdurahmanova**

## Ethical problems in Dada Korkut
## Summary

A masterpiece of Turkish epic culture the history of ancient oghuzs, culture love of ethnology and reflects the rich life. This is a monumental epos traditional heroism and love epics does not fit into the division. Introduction consists of twelve epos this epos, sophisticated philosophical comprehension has a striking structure.

**Redaksiyaya daxil olub:** 27.04.2018